Azərbaycan müəllimi.- 2025.- 8 mart, №9.

# Məktəbəqədər yaşlı uşaqlarda oxu bacarıqları necə formalaşdırılmalıdır?



Məktəbəqədər yaş dövrü uşaqların oxuma və yazma bacarıqlarının formalaşmağa başladığı mühüm bir mərhələdir. Bu dövrdə onların dil və savadlılıq bacarıqlarının inkişafı gələcəkdə uğurlu oxu vərdişləri qazanmalarına zəmin yaradır. Araşdırmalar göstərir ki, erkən yaşlarda mətnlərə diqqət, səslərin tanınması və hərflərlə tanışlıq kimi bacarıqların dəstəklənməsi oxu prosesinin daha asan mənimsənilməsinə kömək edə bilər.

"Azərbaycan müəllimi" "Edutopia" portalına istinadla xəbər verir ki, koqnitiv nevroloq Stanislas Dehaene apardığı araşdırmanın nəticəsinə uyğun olaraq uşaq bağçasından əvvəl azyaşlıların gündəlik təcrübələrinə oxu bacarıqlarının inteqrasiyasını dəstəkləyir.

Belə ki, uşaqların yazılı mətnin strukturunu və funksiyasını başa düşməsi onların oxu bacarıqlarını inkişaf etdirməsi üçün əhəmiyyətlidir. Kitabların hansı istiqamətdə oxunduğu, sözlər arasındakı boşluqların rolu və cümlələrin necə qurulduğu kimi məqamlar uşaqların diqqətinə çatdırıldıqda onlar mətnin mənasını daha yaxşı anlaya bilirlər.

Digər tərəfdən, səsləri fərqləndirmək və sözlərin tərkibindəki səsləri ayırd edə bilmək oxu bacarıqlarının təməlini təşkil edir. Uşaqların müxtəlif səsləri və onların bir-biri ilə əlaqəsini dərk etməsi oxu prosesini daha rahat qavramalarına kömək edir. Qafiyəli sözlərlə oyunlar oynamaq, tapmacalar və şeirlər səsləndirmək bu bacarıqların güclənməsinə dəstək ola bilər. Beləcə, sözlərin başlanğıc səslərinə diqqət yetirmək və gündəlik həyatda eşidilən səsləri tanımaqla uşaqların fonoloji fərqindəliyi artırıla bilər.

Həmçinin hərflərin tanınması və onların səslərinin fərqləndirilməsi oxuma vərdişlərinin inkişafında mühüm rola malikdir. Uşaqların toxunaraq (kinestetik), görərək (vizual) və dinləyərək (audial) hərfləri öyrənməsi onların yaddaşında daha yaxşı qalmasına kömək edə, hərflərin müxtəlif formalarda təqdim edilməsi isə (məsələn, karton, qum kağızı və ya interaktiv oyunlar vasitəsilə) azyaşlıların marağını daha da artıra bilər. Sadə sözlərin birləşdirilməsi və hərflər arasında əlaqələrin qurulması da oxu prosesinə müsbət təsiri qaçınılmazdır.

Bununla da, məktəbəqədər yaş dövründə savadlılığın inkişafına yönəlmiş bu fəaliyyətlər uşaqların gələcəkdə daha inamlı oxucular olmasına imkan yaradır. Əsas məqam oyun və gündəlik təcrübələr vasitəsilə uşaqlara yazı və oxu dünyasını tanıtmaqdır. Bu proses nə qədər təbii və maraqlı olsa, onların oxuya olan marağı da bir o qədər güclənə bilər.

**Mərziyyə KAZIMZADƏ**